*UOT 32*

***G.M.Nəbiyeva***
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
*gulnebiyevaismail@gmail.com*

# XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ AZƏRBAYCAN PEDAQOJİ MƏTBUATINDA HUMANİZM İDEYALARI

***Açar sözlər:*** *pedaqoji mətbuat, "Dəbistan", "Rəhbər", "Məktəb", humanizm ideyaları, tərbiyə nəzəriyyəsi, pedaqoji fikir, mədəni-pedaqoji mühit*

Məqalədə XX əsrin əvvəllərində nəşr olunan pedaqoji mətbuatda öz əksini tapan humanizm ideyalarından söhbət açılır. Həmin mətbuat orqanları "Dəbistan" (1906-1908), "Rəhbər" (1906-1907) və "Məktəb" (1911-1920) jurnallarıdır. Qeyd olunur ki, XX əsrin əvvəllərində mütərəqqi məfkurəli Azərbaycan maarifpərvərlərinin xalqı oyatmaqdan ötrü təbliğ etdikləri çoxsaylı mətləblər sırasında humanizm ideyaları da var idi. Azərbaycan ziyalıları yaxşı dərk edirdilər ki, milli tərəqqiyə və azadlığa nail olmaq, demokratik ictimai quruluş yaratmaq üçün mütləq humanist cəmiyyət yaratmaq lazımdır.

Məqalədə həmçinin milli maarifçilərimizin humanist ideyaları hansı üsul və vasitələrlə təbliğ etdikləri, bunun üçün oxuculara hansı tipdə materiallar verdikləri də elmi şəkildə təhlil olunur. Göstərilir ki, bunun üçün müəlliflər oxuculara daha çox humanizmin müxtəlif detallarını, elementlərini və əhəmiyyətini başa salan yığcam həcmli bədii-pedaqoji materiallar, hekayə və şeirlər təqdim edirdilər. Məqalədə həmin əsərlərin səciyyəvi xüsusiyyətləri, pedaqoji dəyəri, tərbiyəvi təsiri də diqqət mərkəzində saxlanılır.

***Г.М.Набиева***

## ИДЕИ ГУМАНИЗМА В АЗЕРБАЙДЖАНСКОЙ ПЕДАГОГИЧЕСКОЙ ПЕЧАТИ НАЧАЛА XX ВЕКА

***Ключевые слова:*** *педагогическая печать, «Дабистан», «Рахбар», «Школа», гуманистические идеи, теория воспитания, педагогическая мысль, культурно-педагогическая среда*

В статье рассматриваются идеи гуманизма, отраженные в педагогической печати начала XX века. Этими органами печати являются журналы "Дабистан" (1906-1908 гг.), "Рахбар" (1906-1907 гг.) и "Мактаб" (1911-1920 гг.). Отмечается, что в начале XX века идеи гуманизма были среди многих тем, проповедуемых азербайджанскими интеллектуалами с прогрессивной идеологией с целью пробуждения народа. Азербайджанская интеллигенция хорошо понимала, что для достижения национального прогресса и свободы, для создания демократического общественного строя необходимо создать гуманистическое общество.

В статье также научно анализируются методы и средства, которыми наши народные просветители пропагандируют гуманистические идеи, и какие материалы они для этого предоставляют читателям. Показано, что с этой целью авторы представили читателям компактные тома художественно-педагогических материалов, рассказов и стихов, разъясняющих различные детали, элементы и значение гуманизма. В статье акцентируется внимание на характерных чертах, педагогической ценности и воспитательном эффекте этих произведений.

***G.M.Nabiyeva***

**IDEAS OF HUMANISM IN THE AZERBAIJANI PEDAGOGICAL PRESS AT THE BEGINNING OF THE 20TH CENTURY**

***Keywords:*** *pedagogical press, "Dabistan", "Rahbar", "School", humanistic ideas, educational theory, pedagogical thought, cultural-pedagogical environment*

The article discusses the ideas of humanism reflected in the pedagogical press published at the beginning of the 20th century. Those press bodies are "Dabistan" (1906-1908), "Rahbar" (1906-1907) and "Maktab" (1911-1920) magazines. It is explained that at the beginning of the 20th century, the ideas of humanism were among the many topics preached by Azerbaijani intellectuals with a progressive ideology in order to awaken the people. Azerbaijani intellectuals well understood that in order to achieve national progress and freedom, to create a democratic social structure, it is necessary to create a humanistic society.

The article also scientifically analyzes the methods and means by which our national educators propagate humanist ideas, and what type of materials they provide to the readers for this purpose. It is shown that, for this purpose, the authors presented the readers with compact volumes of artistic and pedagogical materials, stories and poems that explain the various details, elements and importance of humanism. The article focuses on the characteristic features, pedagogical value, and educational effect of those works.

Azərbaycanda XX əsrin əvvəllərində böyüyən, təhsil alan gənclərin tərbiyəsində əqli-fikri dünyasının, həyata baxışlarının formalaşmasında, bir sıra gərəkli ideyalara, biliyə yiyələnməsində ozamankı pedaqoji mətbuatın da müəyyən rolu olmuşdur. Ümumiyyətlə, Azərbaycanda pedaqoji mətbuat yaratmaq ideyası və təşəbbüsü XIX əsrin 90-cı illərindən etibarən özünü təzahür etdirmişdir. Həmin illərdə Aleksey Osipoviç Çernyayevski, Nəriman Nərimanov, Sultan Məcid Qənizadə, Həbib bəy Mahmudbəyov kimi ziyalılar uşaq mətbuatı yaratmağa cəhd göstərdilər və bunun üçün aidiyyəti dövlət orqanlarına rəsmi şəkildə müraciət etdilər. Lakin milli ucqarlarda hər cür tərəqqinin, milli oyanışın qarşısını almağa çalışan rəsmi dairələr bu təşəbbüsü cavabsız qoydular, müxtəlif bəhanələrlə əngəllədilər. Belə bir təşəbbüs yalnız Birinci rus inqilabının təzyiqi nəticəsində baş verən siyasi yumşalmadan sonra baş tutdu.

1906-cı ilin 16 aprelində "Dəbistan" adlı jurnal nəşrə başladı. Bu, Azərbaycan xalqının tarixində işıq üzü görən ilk uşaq mətbuatı orqanı, uşaq mətbuatımızın ilk qaranquşu idi. Tanınmış pedaqoqlar Əlisgəndər Cəfərzadə (1875-1941) və Məhəmmədhəsən Əfəndizadə (1886-1918) jurnalın redaktorları idilər. Jurnal böyük bir məramla fəaliyyətə başladı. İlk nömrədə dərc olunan "İfadeyi-məram" sərlövhəli məramnamədə məcmuə yazırdı: "Ümidimiz budur ki, millətimizin balalarının lap uşaqlıqdan əqil, zehin, əxlaqi-hüsn və hissiyyatların oyandırıb günbəgün tərəqqi etmələrinə səbəb olaq və onlardan zəhmətkeş...və vətənpərvər cavanlar yetirək" [1]. Böyük bir istək və amalla nəşrə başlayan məcmuənin təəssüf ki, 1906-1908-ci illər ərzində cəmi 27 nömrəsini çıxarmaq mümkün oldu. 1908-ci ilin yanvarında, maddi çətinlik ucbatından jurnalın nəşri dayandı.

1906-1907-ci illərdə (24 sentyabr 1906 – 17 yanvar 1907) işıq üzü görən "Rəhbər" jurnalı da eyni taleyi yaşadı. Görkəmli maarif xadimi Mahmudbəy Mahmudbəyovun (1863-1923) naşiri və redaktoru olduğu bu pedaqoji məcmuənin cəmi beş nömrəsini nəşr etmək mümkün oldu. Maddi sıxıntıya görə o da bağlanmalı oldu. "Dəbistan" kimi o da xoş bir niyyət və məramla millətə, millət balalarına xidmət etmək məqsədini izləyirdi. Jurnalın ilk nömrəsində bu barədə deyilirdi:"Məqsudumuz məktəblərimizin müntəzəmliyinə, millətimizin məişət meydanında, elm və mərifət yolunda irəli getməsinə və milli ədəbiyyatından xəbərdar olmasına əlimizdən gələn qədər rəhbərlik etməkdir" [14].

1920-ci ilə, yəni sovet dönəminə qədərki uşaq mətbuatı orqanlarından ən uzunömürlüsü "Məktəb" jurnalıdır. Onun ilk nömrəsi 29 noyabr 1911-ci ildə, sonuncu nömrəsi isə mart 1920-ci ildə nəşr olunmuşdur. Beləliklə, o, 9 ilə qədər müxtəlif fasilələrlə fəaliyyət göstərmişdir. Məcmuənin naşirləri və redaktorları Qafur Rəşad Mirzəzadə (1884-1943) və Əbdürrəhman Əfəndizadə (1884-1918) olmuşlar. Onun bu illər ərzində üst-üstə 100-ə yaxın nömrəsi işıq üzü görmüşdür.

Sovet dövrünə qədər mövcud olan və fəaliyyət göstərən pedaqoji mətbuat orqanlarımız bu üç məcmuədən ibarətdir. Səhifələrində ədəbiyyatın, elmin, həyat və məişətin, pedaqoji gerçəkliyin, məktəbin, maarifin və s. müxtəlif məsələlərinə aid rəngarəng materialların yer aldığı bu jurnallar o zaman böyüməkdə olan nəslin təlim-tərbiyəsində əhəmiyyətli rol oynamışdır. Gənc nəslin milli oyanışı, dirçəlişi, vətənin və xalqın tərəqqisi yolunda çalışan bu mətbuat orqanları gənc nəslə rəngarəng müsbət, işıqlı ideyalar, əxlaqi-tərbiyəvi fikirlər aşılayırdılar. Onların müasir dünyagörüşünə, elmə, bilik və bacarıqlara yiyələnməsinə səy edirdilər. Şübhəsiz ki, bu ideyalar, mətləblər sırasında humanizm ideyaları da var idi. Biz bu mətbuat orqanlarının səhifələrində gənc nəslə insanpərvərlik ideyaları aşılayan, onları insansevərlik

ruhunda böyütməyi nəzərdə tutan çoxlu sayda maraqlı, məzmunlu, dəyərli, təsirli materiallara rast gəlirik.

Onu da əlavə edək ki, məktəb dərsliklərində və oxu kitablarında olduğu kimi, uşaq mətbuatında da istər pedaqoq naşirlər, istərsə də materialların, əsərlərin müəllifləri oxucularının kim olduğunu, onların səviyyəsini, maraqlarını, zövqünü, dərketmə imkanlarını və s. mümkün qədər nəzərə alırdılar. Çoxu pedaqoq olan müəlliflər, qələm sahibləri kiçik oxucuları mücərrəd nəzəri fikirlərlə yormaq, onlara abstrakt həqiqətləri çatdırmaq missiyasından uzaq idilər. Çünki onlar belə bir üsulun arzu olunan tərbiyəvi effekt verməyəcəyini yaxşı bilirdilər. Ona görə də dərsliklərdə və qiraət kitablarında olduğu kimi, kiçik oxuculara daha çox həcmcə yığcam şeir və hekayələr təqdim etməyə üstünlük verirdilər. Humanizmlə bağlı ideya və mətləblərini bədii nümunələrin mətninə, məzmununa "bükürdülər". Təbii ki, bu cür əsərlər vasitəsi ilə təlqin olunan mətləbləri, tərbiyəvi fikirləri uşaqlar daha asan, daha yaxşı və daha həvəslə qavrayırdılar.

Filosoflar, sosioloqlar, siyasətşünaslar, hikmət sahibləri humanizmin fəlsəfəsini, mahiyyətini, ictimai mühitdə ədalət və nizam yaratmaqdakı rolunu, zərurətini böyüklər üçün müxtəlif aspektlərdən şərh edirlər. Əlbəttə, bu şərhləri kiçiklərin anlaması, dərk etməsi mümkün deyil. Uşaqlar bu həqiqəti ancaq sadə, onların səviyyəsinə uyğun əhvalat və izahatların fonunda fəhm edə bilərlər. Bunu aydın dərk edən pedaqoq maarifçilərimiz elə sadə və gözəl üsuldan istifadə edirdilər ki, kiçik oxucu ictimai gerçəklikdə insanpərvərliyin, insanın insana sevgi və köməyinin nə üçün zəruri olduğunu çətinlik çəkmədən anlayırdı. Məsələn, onlar humanizmin nüvəsində, mahiyyətində dayanan əsas səbəblərdən birini, yəni insanların bir-birinə olan ehtiyacını adi bir həyati əhvalatın fonunda göstərmək və sübut etməklə nəzərə çatdırırdılar. Tanınmış yazıçı-müəllim Rəşid bəy Əfəndiyevin "Məktəb" jurnalında [9] "İnsanlar bir-birinə möhtacdırlar" adlı kiçik bir hekayəsi dərc olunmuşdur. Bu, yığcam bir məişət əhvalatıdır. Ancaq müəllif həmin əhvalatı elə qurmuşdur ki, kiçik oxucu çətinlik çəkmədən adamların birinin digərinin köməyinə hər zaman ehtiyacı olduğunu başa düşür. Anlayır ki, fərdlər arasında qarşılıqlı yardım, ehtiram, etibar, güzəşt, sevgi, səmimiyyət hissi güclü olarsa, o qədər də gözəllik, firavanlıq olar, yaşayış asanlaşar, ehtiyac və çətinlik ortadan qalxar, cəmiyyətdə nizam və məhəbbət yaranar. Diqqətəlayiqdir ki, yazıçı bütün bunları iki sadə adamın – arabaçının əməllərinin timsalında oxucuya çatdırır. Həmkəndli olan bu şəxslərdən biri insaflı, ədalətli, digəri isə acgöz, insafsız və ədalətsizdir. İkinci naqis əməlinə görə öz əməlinin toruna düşür, sonradan keçirdiyi peşmançılıq isə fayda vermir. Müəllif demək istəyir ki, hər kəs nə qədər insanpərvər, xeyirxah olsa, başqaları da ona qarşı o qədər insanpərvər və xeyirxah davranar. Beləliklə, cəmiyyətdə insanpərvərlik ümumi missiya və ənənə halını alar.

Məktəb dərsliklərində olduğu kimi, pedaqoji mətbuatda dərc olunan materiallarda da tərbiyəçi müəlliflər belə bir əlverişli və təsirli üsuldan istifadə edirdilər. Onlar nümunəvi humanist insan surətləri yaradır, bu surətlərin əməl və rəftarlarını oxuculara bir tərbiyəvi örnək kimi təqdim edirdilər. Bununla sanki onlar gənclərə demək istəyirdilər ki, bax, görürsən, bu şəxsin tutduğu iş nə qədər insanidir, xeyirxahlıq nümunəsidir, xoşagələn və bəyənilәndir. Deməli, sən də belə olmalısan və belə olmağı başqalarına da təbliğ etməli, öyrətməlisən. Maraqlıdır ki, həmin humanizm mücəssəməsi olan nümunəvi surətlərin bir qismini məhz uşaqlar təşkil edirdi. Kiçiklərin öz tay-tuşları, yaşıdları olan xeyirxah, nəcib, yaxşılıq etməyə meylli uşaq obrazları vasitəsi ilə müəlliflər balacaların əxlaqi, ruhi və mənəvi dünyasına daha çox təsir etmək məqsədi güdürdülər. Onlar bir psixoloq fəhmi ilə anlayırdılar ki, uşaqların öz həmyaşıdlarının əməl, hərəkət və rəftarları onlara daha asan sirayət edir. Bu tipli hekayələrə aşağıdakıları nümunə göstərə bilərik: İmzasız - "Dövlətmənd bir ovçu ilə bir çobancığın mükaliməsi" [3]; Bakı realnı məktəbin şagirdi Ə.B.Əmirxanzadə - "Qeyrətli şagirdlər" [4]; İbrahim bəy Musabəyov - "Rzanın qutusu" [10]; Rüxsarə xanım Mehrəlıbəyova - "Hər kəs mərhəmətli olmalıdır – rəhmdil İlyas" [11]; Cəfər Bünyadzadə - "Kamil və Aqil: məktəb həyatində" [12] və s.

"Dəbistan" jurnalında imzasız çap olunan "Dövlətmənd bir ovçu ilə bir çobancığın mükaliməsi" hekayəsində on iki yaşında qoyun otaran Qəhrəman adlı bir oğlan uşağı təsvir edilir. O, ov üçün şəhərdən kəndə gəlib meşədə azan zəngin bir kişiyə kömək edir. Belə ki, ovçu yolu azdığı üçün bir müddət ac qalmış, tamamilə taqətdən düşmüşdü, köməksiz, çarəsiz vəziyyətdə idi. Çoban uşaq həm öz yeməyini ona verir, həm də ona yol göstərib çətinlikdən xilas edir. Əlbəttə, bu, böyük xeyirxahlıqdır. Lakin çoban oğlanın nümunəvi əməli bununla bitmir. Zəngin kişi etdiyi yaxşılığın müqabilində Qəhrəmana israrla müxtəlif yaxşılıqlar, hətta pul təklif etdikdə uşaq bu təklifləri qəbul etmir. Özünün etdiyi yaxşılığı "vicdan borcu, insanlıq borcu" adlandırır və deyir: "Aman ağa, bizim pula ehtiyacımız yoxdur, həm də anam qəbul etməz və mənə acığı tutar, zira məktəbdə oxuyub eşitdiyim kimi evdə anamdan dəxi çox dəfələr eşitmişəm ki, möhtac olanlara kömək etmək insanın birinci vəzifələrindən birisidir. Əgər mən bu pulu qəbul edərsəm, etdiyim köməyi satmış oluram. Mən sənə pənir-çörək verməklə ancaq borcumu əda elədim" [3]. Oğlanın bu sözlərində diqqəti cəlb edən, həm də müəllifin nəzərə çatdırmaq istədiyi mühüm bir məqama da toxunmaq lazım gəlir: tərbiyə mühitinin sağlamlığı. Uşağın dediklərindən bəlli olur ki, həm evdə valideynləri, həm də məktəbdə müəllimləri ona insanpərvərlik tərbiyəsi verir, insanlara edilən yaxşılığın bir insanlıq borcu olduğunu təlqin edirlər.

Diqqətəlayiq bir məsələyə də toxunmaq yerinə düşər. Yuxarıda adını çəkdiyimiz "Qeyrətli şagirdlər" hekayəsinin müəllifi Bakı realnı məktəbinin

şagirdi Ə.B.Əmirxanzadə idi. Yəni insanpərvərlik tərbiyəsi aşılamaq məqsədi ilə yazılan əsərin həm müəllifi, həm oradakı surətlər, həm də onun oxucuları kiçik yaşlılardan, konkret şəkildə desək, şagirdlərdən ibarət idi. Şagirdlər iki yerə ayrılır: yaxşılıq edilən, yaxşılıq edən. Təsvir olunan əhvalat belə bir yığcam süjetə malikdir: Edadi məktəbinin şagirdi Fətəli yaxşı oxusa da, onun valideynlərinin Fətəlinin təhsil haqqını ödəməyə maddi imkanları yoxdur. Buna görə də o, məktəbdən çıxarılmalıdır. Şagird yoldaşları bunu bilib pul toplayır və onu bu çətinlikdən xilas edirlər. Deməli, yaxşılıq edən də, yaxşılıq edilən də şagirdlərdir. Hekayənin müəllifindən tutmuş surətlərinə qədər hamısının şagirdlərdən ibarət olması o deməkdir ki, milli məktəb və maarif mühitində qələm sahiblərimizin, pedaqoqlarımızın təbliğ etdikləri mütərəqqi fikirlər, o cümlədən insanpərvərlik ideyaları səmərə verir, məktəb partası arxasında oturan gənc nəslin fikir, məslək, amal dünyasına, dünyagörüşünə lazımınca təsir göstərirdi. Artıq bu mütərəqqi ideyaları təbliğ edənlər, humanizm nuru yayanlar yalnız böyüklər deyil, həm də millətin gələcəyi olan şagirdlər idilər. Artıq şagirdlər öyrənəndən həm də öyrədənə, tərbiyə alandan tərbiyəçiyə çevrilirdilər. Bu, xalqımızın mədəni-pedaqoji həyatında yetərincə uğurlu bir hadisə sayıla bilərdi.

İ.Musabəyovun "Rzanın qutusu" hekayəsində isə daha kiçik yaşlı xeyirxah, ağıllı, səmimi, insansevər bir uşaq obrazı görürük. O, heç məktəb yaşına da çatmayıb. Maraqlı burasıdır ki, hekayədəki əhvalatda müəllif insanpərvər uşaqla qeyri-insanpərvər böyüyü qarşılaşdırır, müqayisə edir. Birinci övlad, ikinci isə atadır. Çox sadə, aydın mətləbə malik əhvalatın fonunda oxucu çətinlik çəkmədən oğulla atanın, kiçiklə böyüyün əməllərini müqayisə edə bilir. Birincinin insanlara qarşı məhəbbətinə, yaxşılıq göstərmək meylinə, humanist düşüncəsinə bəraət qazandırır və rəğbət bəsləyir. İkincinin isə yoxsul hesab edib soyuq münasibət göstərdiyi, kobud rəftar etdiyi qardaşına qarşı qeyri-insani davranışı nifrət doğurur. Kiçik bir əhvalatla yazıçı ibrətamiz şəkildə insanpərvərliyin faydasını, qeyri-insanpərvərliyin zərərini oxucuya çatdırır.

R.Mehrəlibəyovanın "Məktəb" jurnalında işıq üzü görən "Hər kəs mərhəmətli olmalıdır – rəhmdil İlyas" hekayəsində də uşaqların rəhmdilliyindən, xeyirxahlığından söhbət açılır. O dövrün barmaqla sayılacaq qədər az olan qadın pedaqoqlarımızdan Rüxsarə xanım Mehrəlibəyovanın qələmə aldığı bu əsərdə göstərilir ki, Qızxanım adlı dul bir qadının yeganə oğlu xəstədir. Onlar o qədər kasıbdırlar ki, yeməyə heç bir şeyləri yoxdur. Bayram vaxtı olmasına baxmayaraq nə xərcləməyə pulları, nə də bayram keçirməyə imkanları vardır. Bunu bilən kənd uşaqları İlyasın təşəbbüsü ilə bayram vaxtı qapı-qapı gəzib topladıqları pulu və yeməkləri aparıb Qızxanım xalaya verir, onu sevindirirlər. Əlbəttə, bu, kiçiklərin öz həmyaşıdlarına göstərdikləri insanpərvərlik nümunəsi ilə bağlı bir məişət əhvalatıdır. Burada təsvir edilən

uşaqlar öz sevinclərini yoxsul, ehtiyaclı bir ailə ilə bölüşməkdən daha çox məmnun qalır, sevinirlər. Yazıçının məqsədi onların rəftarını bir örnək kimi başqalarına da təlqin etməkdir.

Pedaqoji mətbuatda humanizmin mühüm bir komponenti kimi zülm və ədalət məsələlərinə də diqqət yetirilirdi. Bu zaman tərbiyəçi sənətkarlar ibrətamiz məzmuna malik hekayətlərdən, rəvayətlərdən, əhvalatlardan daha çox yararlanırdılar. Çünki bu tipli bədii nümunələr vasitəsilə balacaların qəlbinə yol tapmaq, həqiqəti onlara anlatmaq daha asan idi. Məmmədhəsən Əfəndizadənin "Ögey uşaqlar" [2] hekayəsində ananın və onun təsirinə düşən dayənin doğma və ögey uşaqlarına qarşı rəftarı diqqət mərkəzində saxlanılır. Ana və dayə ögey övladlara qarşı sərt, qəddar davranır, onları incidirlər. Yazıçı bu cür davranışı insanlıqdan kənar əməl kimi tənqid edir. Doğrudur, əhvalatı nikbin sonluqla bitirmək, həyatın ağrı-acıları ilə kiçik oxucuları məyus etməmək istəyən yazıçı hadisəni xoş ovqatla bitirir. Ağıllı, tədbirli ögey övladlar vəziyyətdən çıxış yolu tapır, sıxıntıdan qurtarırlar. Lakin müəllif qəddarlığın, zalımlığın pis əməl olduğunu da öz oxucularına anlada bilir.

Müəllifi göstərilməyən, məzmunu klassik şərq mənbələrindən əxz edilmiş "Gözəl bir təşəbbüs" [8] rəvayətində ədalətli şah və ədalətsiz vəzir üzləşdirilir. Ədalətli, mərhəmətli, rəiyyətsevər bir şah eşidir ki, onun vəziri günahsız bir əkinçini döydürüb. Şah bu qəbahəti üçün vəziri birbaşa danlayıb tənbeh etmir, onu əyani şəkildə başa salmaq istəyir ki, rəiyyəti sevmək, onların səltənətə və cəmiyyətə verdikləri faydanı başa düşmək lazımdır. Bundan ötrü şah gözəl bir ziyafət düzəltdirib ləzzətli təamlar bişirməyi əmr edir. Lakin xəlvəti buyurur ki, xörəklər düzülsə də, süfrəyə çörək qoyulmasın. Belə də edirlər. Sonda şah vəzirdən ziyafətin necə keçdiyini soruşur. Vəzir hər şeyin gözəl olduğunu söyləyir, amma heyifsilənir ki, belə gözəl xörəklər olan məclisdə süfrədə çörək yox idi. Bunu eşidən şah qəzəblə vəzirə deyir: "Öylə isə sizə verdiyim cəzanın əsl mənasını anlayınız. İmdi ki, bizə bəslənmək və yaşamaq üçün çörək lazımdır, o vəqtdə bu çörəyi əmələ gətirən əkinçilərə hörmət və mərhəmət etmək lazımdır". Bu şərq rəvayətindəki ideya nəticə etibarı ilə Avropa maarifçilərinin "ağıl və zəka" səltənəti yaratmaq ideyası ilə uzlaşır. Bəlli olduğu kimi, Avropa maarifçiləri belə hesab edirdilər ki, əgər cəmiyyətin başında ağıllı, elmli və ədalətli adamlar durarsa, onda cəmiyyət firavan və xoşbəxt olar, insanlar hürriyyət içində yaşayar.

Beləliklə, XX əsrin əvvəllərində Azərbaycanda "Dəbistan" (1906-1908), "Rəhbər" (1906-1907) və "Məktəb" (1911-1920) kimi pedaqoji mətbuat orqanları mövcud olmuşdur. Bunlar xalqımızın tarixində uşaqlar üçün ilk mətbuat orqanları idi. Milli məkanda böyüməkdə olan nəslin hərtərəfli mənada tərbiyəsində bu jurnallar əhəmiyyətli rol oynadı. Gənc nəslin humanist ruhda tərbiyəsində də həmin mətbuat orqanlarının danılmaz rolu oldu. Hər üç jurnalda

insanpərvərlik mövzusunda yazılmış çoxlu sayda dəyərli, tərbiyəvi materiallar bunu aydın şəkildə sübut edir.

## ƏDƏBİYYAT


1. "Dəbistan" jurnalı, 1906, №1
2. "Dəbistan" jurnalı, 1906, №4
3. "Dəbistan" jurnalı, 1906, №7
4. "Dəbistan" jurnalı, 1907, №4
5. *Əliyeva Ş., İlyasov M. və b.* Humanist pedaqogikanın aktual məsələləri: Metodiki vəsait. Bakı: ADPU, 2018,141s.
6. *Əliyev R.* Humanizm tərbiyəsinin sosial-psixoloji əsasları // Azərbaycan məktəbi, 2017, №5, s.49-58
7. *İlyasov M.* Humanist pedaqogika: mahiyyət, prinsiplər, istiqamətlər // Azərbaycan məktəbi, 2017, №6, s.13-16
8. Məktəb" jurnalı, 1911, №3
9. Məktəb" jurnalı, 1912, №5
10. Məktəb" jurnalı, 1913, №3
11. Məktəb" jurnalı, 1914, №5-6
12. Məktəb" jurnalı, 1915, №1
13. *Pəncəli A.* Azərbaycan uşaq ədəbiyyatında tərbiyə məsələləri (1905-1920-ci illər): Pedaq. elm. nam. ... dis. Bakı, 1964, 235 s.
14. "Rəhbər" jurnalı (1906-1907), 1906, №1
15. *Rəsulzadə M.Ə.* Əsərləri: 5 cilddə, I c. (1903-1909). Bakı: Azərnəşr, 1992, 470 s.
16. *Rüstəmov F.* Pedaqogika tarixi. Bakı: Nurlan, 2006, 748 s.
17. *Rüstəmov F.* Humanist pedaqogika, yaxud pedaqogikada humanizm? Bakı: Elm və təhsil, 2018, 91 s.


Redaksiyaya daxil olub 09.11.2022